TURK ELI

International Scientific Journal



Volume 1 | Special Issue Part 1 | 2026

Manas, Kyrgyz Republic

www.turkeli.science

TURK ELI
INTERNATIONAL SCIENTIFIC JOURNAL

The journal is officially registered as a mass media outlet by the Justice Department of Manas Region under the Ministry of Justice of the Kyrgyz Republic in accordance with Registration Certificate No. 10339 dated March 11, 2024. The journal is registered under the title “TURK ELI” International Scientific Journal and is authorized for publication in Kyrgyz, Turkish, Uzbek, Kazakh and English languages.

Honorary President
Sarvar Ispahi

Editor-in-Chief
Jenishbek Duysheev

Deputy Editor in-Chief
Rahmonali Hasanov

Editorial Board:

Ablat Khodjaev (Prof. Dr.)
Shakimashrip Ibraev (Prof. Dr.)
Shohistahon Uljaeva (Prof. Dr.)
Kubanychbek Kalchakeev (Prof. Dr.)
Abdimajid Madraimov (Prof. Dr.)
Shukhrat Sattorov (Prof. Dr.)
Ibrahim Kush (Dr.)
Faig Elekberli (Dr.)
Erdenebayar Nasanbat (Dr.)
Gulnara Anarbaeva (Dr.)
Nurgul Aldabek (Dr.)
Nurjamal Myrzabaeva (Dr.)
Takhirjan Kazakov (Dr.)
Elmira Hazratkulova (Dr.)
Azamat Kaliev (Dr.)
Abdulvakhidkhon Nuriddinov (Dr.)

About this Special Issue

This Special Issue presents selected papers from the International Scientific Conference
Ijtimoiy fanlar va jamiyat taraqqiyoti:
barqaror rivojlanishning strategik yo‘nalishlari

Technical Editor
Laziz Baxtiyorov

Publisher: turkeli.science
E-mail: editor@turkeli.science


TOSHKENT IQTISODIYOT VA TEXNOLOGIYALARI UNIVERSITETI
TITU
TOSHKENT – 2022
TOSHKENT IQTISODIYOT VA TEXNOLOGIYALAR UNIVERSITETI
IJTIMOIY FANLAR FAKULTETI
IJTIMOIY FANLAR VA JAMIYAT TARAQQIYOTI:
BARQAROR RIVOJLANISHNING
STRATEGIK YO‘NALISHLARI
GLOBAL MIQYOS
STRATEGIYA VA TARAQQIYOT
ILM-FAN VA INNOVATSIYA
JAMIYAT VA INSON KAPITALI
XALQARO ILMIY-AMALIY KONFERENSIYA
ILM-FAN ORQALI BARQAROR KELAJAK SARI
2026-yil 15-may

Contents

A. A. Djumanqulov *A. A. Beknazarov*	Psychological and Methodological Principles of Effective Lesson Time Management by Teachers	6
B. A. Khasanova *R. Abdullaev*	Digital Transformation in Central Asia: An Assessment Based on the Case of the Kyrgyz Republic	8
Yu. Akhmedov	The Strategic Importance of Crisis Communication in Ensuring National Stability in Polyethnic Societies	13
O. F. Egamberdiev	The Role, Determinants, and Effectiveness of Marketing Strategies in the Sustainable Development of the Transport System: Evidence from the Khorezm Region	17
R. Sh. Ibrahimova	Development History of Parasitology in Azerbaijan	20
B. O. Turaev	Ali Qushchi: The Scholar Who Introduced the Achievements of Ulugh Beg's Academy to the World	22
H. Hamidov	The History of Artists during the Reign of Amir Temur and the Timurid Period	26
S. Dj. Saidova	National Costume as a Historical and Spiritual Phenomenon	30
K. M. Yuldoshev	Innovation in Education	33
A. S. Kaliev *N. B. Bazarbaev*	Political Development and the Transformation of Civil Identity in Uzbekistan: The 690th Anniversary of Amir Temur and the Politics of	36
K. M. Yuldoshev *Z. Murodova*	Rabat-i Malik Caravanserai: A Key Waystation on the Great Silk Road	39
D. S. Saparboeva	Features of the Development of Logical Thinking in Primary School Mathematics Lessons	42
Sh. O. Sayfullaeva	Developing Reading Skills through Authentic Texts in Teaching Russian as a Foreign Language	44
N. Kh. Kholyigitova	The Role of Personal Values–Oriented Career Planning in Higher Education for Societal Development	46
M. N. Inatov	The Application of Sociological and Historical Analysis Methods in Letter Analysis	48
M. G. Nazarova	Socio-Psychological and Educational Strategic Directions for Preparing Future Engineers for Professional Activity in the Context of Societal Development	51
I. H. Jabrayilov	Common Turkish History: Research and Teaching Issues	54
O. V. Kon	Preparing the Next Generation of Social Educators in Higher Education: A Competency Model in the Context of Global Societal Challenges	56
D. A. Egamberdieva	The Semantic Characteristics of Nature Symbols in Uzbek and English Fairy Tales	60
Q. H. Inoyatov	The Scientific Legacy of Our Great Ancestors as a Source of Education and Moral Values	64
A. J. Toshboboev	The Integration of Social Sciences and the Education System for Sustainable Societal Development: An Analysis of Historical and Contemporary Approaches	66
G. B. Ernazarov	The Role of the Service Sector in the National Economy: Significance, Economic Analysis, and Strategies for Improvement	69
Ə. M. Zeynalov	Azerbaijan in French Literature	72
K. M. Gulomova	The Role of Modern Pedagogical Technologies in Enhancing Teachers' Professional Competence	76
S. Ibrohimov	Culture and Historical Heritage as Economic Resources: Innovative Management and Strategies for Sustainable Growth	79
J. O. Kucharov	Enhancing Workforce Potential in Small Business Enterprises in Uzbekistan	82

Common Turkish History: Research and Teaching Issues

Intigam Hilal Jabrayilov (Doctor of Sciences in Pedagogy, Professor)[1]
ORCID: 0000-0003-2437-5926
[1.] Institute of Education of the Republic of Azerbaijan
Baku, Azerbaijan

Abstract.
This article examines contemporary research and teaching issues related to the common history of the Turkic peoples and states. It highlights the growing importance of studying shared historical and cultural values following the independence of Turkic republics and emphasizes the role of academic cooperation in strengthening historical awareness and cultural integration. The study reviews significant scholarly contributions made by Azerbaijani researchers and discusses the incorporation of Common Turkic History into educational curricula at different levels. The findings suggest that systematic research and effective teaching of the shared historical heritage of the Turkic world contribute to the preservation of cultural identity, the promotion of mutual understanding among Turkic nations, and the education of younger generations based on common historical values.
Keywords: history, common Turkic history, Central Asia, research, teaching, values, school, student, culture

Ortaq türk tarixi: tədqiq və tədris məsələləri

İntiqam Hilal oğlu Cəbrayılov (pedaqogika elmləri doktoru, professor)[1]
ORCID: 0000-0003-2437-5926
[1.] Azərbaycan Respublikası Təhsil İnstitutu
Baku, Azərbaycan

Xülasə.
Məqalədə türk xalqları və dövlətlərinin ortaq tarixinin tədqiqi və tədrisinin müasir vəziyyəti təhlil edilir. Türk respublikalarının müstəqillik əldə etməsindən sonra ortaq tarixi və mədəni dəyərlərin öyrənilməsinin aktuallığı, elmi əməkdaşlığın və inteqrasiyanın əhəmiyyəti vurğulanır. Azərbaycanda bu istiqamətdə aparılmış mühüm elmi tədqiqatlar nəzərdən keçirilir və ortaq türk tarixinin ümumtəhsil və ali təhsil müəssisələrində tədrisi məsələləri qiymətləndirilir. Araşdırma göstərir ki, ortaq tarixi irsin sistemli şəkildə öyrənilməsi və tədrisi türk xalqlarının mədəni kimliyinin qorunmasına, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və gənc nəslin ortaq dəyərlər əsasında formalaşmasına mühüm töhfə verir.
Açar sözlər: tarix, ortaq türk tarixi, Mərkəzi Asiya, tədqiqat, tədris, dəyərlər, məktəb, şagird, mədəniyyəti

XX yüzilliyin sonlarında dünyada gedən proseslər nəticəsində sosializm sisteminin süqutu, yeni müstəqil dövlətlərin yaranması ölkələr, xalqlar, dövlətlər arasında yeni münasibətlər sisteminin formalaşması və inkişafına əlverişli imkanlar açdı. Həmin dövrdə yeni müstəqil türk dövlətlərinin yaranması da milli özünəqayıdış, ortaq dəyərlərin dərindən öyrənilməsi, qorunması üçün möhkəm zəmin hazırladı. Əgər 1991-ci ilədək türk respublikası kimi yalnız Türkiyə Cümhuriyyəti müstəqil dövlət idisə, ötən əsrin sonlarında Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan Respublikalarının da müstəqillik əldə etmələri türk xalqlarının həyatında çox böyük hadisəyə çevrildi. Bu dövrdən etibarən türk xalqları və dövlətlərinin həm daxili potensialının inkişafı, eyni zamanda onlar arasında qarşılıqlı əlaqələrin, inteqrasiyanın güclənməsi nəinki bölgədə, bütövlükdə dünyada gedən proseslərə ciddi şəkildə təsir göstərməyə başladı.

Müstəqillik illərində diqqəti cəlb edən məsələlərdən biri də elm, təhsil, mədəniyyət sahəsində əlaqələrin inkişafı, ortaq dəyərlərin qorunmasına xüsusi əhəmiyyətin verilməsidir. Qeyd edək ki, bu istiqamətdə çoxsaylı tədbirlərin həyata keçirilməsi, tədqiqatların aparılması, xüsusilə tarixi mövzularda araşdırmalara üstünlük verilməsi təqdirəlayiqdir.

Azərbaycanda Ziya Bünyadov, Yaqub Mahmudov, Qiyasəddin Qeybullayev, Əsməd Muxtarova, Şahin Mustafayev, Əzizağa Ələkbərli, Tofiq Nəcəfli və digər tədqiqatçı alimlər türk xalqları və dövlətlərinin tarixi ilə bağlı dəyərli araşdırmalar aparmış və elmi dövriyyəyə daxil edilmişdir [1,2,3,4,5,6]. Bu baxımdan Yaqub Mahmudovun "Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами (II половина XV – начало XVII века) [13], Qiyasəddin Qeybullayevin "Azərbaycan türklərinin təşəkkül tarixindən" [6], Əsməd Muxtarovanın "Türk xalqlarının tarixi (qədim dövrlər və orta əsrlər) [7], Şahin Mustafayevin "От сельджуков к османам: этнополитические процессы в тюркской среде Малой Азии в XI–XV веках" [8], Mais Əmrahın (Mais Əmrahov) "Mərkəzi Asiyanın Türk respublikaları müharibə illərində (1941-1945-ci illər) [4], Əzizağa Ələkbərlinin "Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri (1920-1991) [3], Tofiq Nəcəflinin "Səfəvi-Osmanlı münasibətləri" [9] və digər alimlərin əsərlərini qeyd etmək olar.

Qeyd edək ki, son illərdə türk xalqları və dövlətləri arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi ortaq tarixi dəyərlərin daha dərindən öyrənilməsi və təbliği imkanlarının artırılmasına əlverişli zəmin yaratmışdır. Bu, hələ ən qədim zamanlardan geniş coğrafiyada yaşayan türk xalqlarının yeni tarixi şəraitdə birliyinin möhkəmləndirilməsi, milli ruhunun, ümumtürk mədəniyyətinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu proses, eyni zamanda ortaq türk dilinin formalaşdırılması, inkişafını sürətləndirən amil kimi də səciyyələndirilməlidir. Bütün bunların reallaşdırılması, ilk növbədə türk dövlətlərinin, o cümlədən Azərbaycan Respublikasının apardığı məqsədyönlü siyasətlə bağlıdır. Bu baxımdan ortaq türk tarixinin öyrənilməsinə xidmət edən türk xalqları və dövlətləri arasında mədəni əlaqələrin tarixinə dair elmi tədqiqatların genişləndirilməsi də maraq doğurur və mahiyyətcə, həm də qürurvericidir.

Son illərdə nəşr edilən tədqiqat əsərlərindən biri kimi Əzizağa Ələkbərlinin "Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri (1920-1991) monoqrafiyası ortaq türk tarixinin tədqiqi və təbliği baxımından maraq doğurur [3]. Tarix üzrə fəlsəfə doktoru Əzizağa Bəhrəm oğlu Ələkbərlinin bu mövzuda monoqrafiyası məhz həmin xüsusiyyətləri özündə ehtiva edən və aktuallığı ilə xüsusi diqqət çəkən tədqiqat əsəridir.

Monoqrafiya giriş, beş fəsil, iyirmi paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Birinci fəsil Azərbaycan-Qazaxıstan, ikinci fəsil Azərbaycan-Qırğızıstan, üçüncü fəsil Azərbaycan-Özbəkistan, dördüncü fəsil Azərbaycan-Tacikistan və sonuncu- beşinci fəsil isə Azərbaycan-Türkmənistan elmi əlaqələrinə həsr edilmişdir.

Əsərdə Azərbaycanın Mərkəzi Asiya xalqları ilə iqtisadi, siyasi və mədəni, o cümlədən elmi əlaqələrinin qədim tarixi köklərindən də bəhs edilir, Azərbaycanın tarixən Mərkəzi Asiya, Kiçik Asiya və Şimali Qafqaz arasında körpü rolunu oynadığı əsaslandırılır.

Əsərdə elmi əlaqələrin inkişafında Azərbaycanın görkəmli alimlərindən coğrafiyaçı və torpaqşünas alim, akademik Həsən Əlirza oğlu Əliyev (1907-1993), biologiya elmləri doktoru, akademik Cəlal Əlirza oğlu Əliyev (1928-2016), geologiya-mineralogiya elmləri üzrə tanınmış alimlər Əli Ağamalı bəy oğlu Əmiraslanov (1900-1962), Kazım Əbdülmanaf oğlu Ələkbərov (1909-1987), Şəfaət Fərhad oğlu Mehdiyev (1910-1993), şərqşünaslar Əlisöhbət Sumbat oğlu Sumbatzadə (1907-1992), Əbdülkərim Əli oğlu Əlizadə (1906-1979), Həmid Məmmədtağı oğlu Araslı (1909-1983), Məmmədağa Sultanməhəmməd oğlu Sultanov (1910-1991), dilçi alim Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə (1909-1979), coğrafiyaçı alim Budaq Əbdüləli oğlu Budaqov (1928-2012), tarixçi alim Ələvsət Nəcəfqulu oğlu Quliyev (1922-1969), ədəbiyyatşünas alim Yaşar Vahid oğlu Qarayev (1936-2002), türkoloq alim Ağamusa Ağası oğlu Axundov (1932-2015) və başqalarının xidmətlərindən bəhs edilir, Mərkəzi Asiya ölkələrinin elm xadimlərinin (tarixçi alim akademik Akay Nusupbekoviç Nusupbekov (1009-1983), akademik Tuken Biqaliyeviç Omarov (1935-2013) -Qazaxıstan; akademik Kurman- Qali Karakeyeviç Karakeyev (1913-2012)-Qırğızıstan; türkoloq-pedaqoq Xalid Səid Xocayev (1893-1937), folklorşünas, professor Hadi Tillayeviç Zərifov (1900-1972) -Özbəkistan; akademik Ənvər Göyüş oğlu Rüstəmov (1917-2005), ədəbiyyatşünas Əkbər Əliyev (Ruhi)(1908-1981) -Türkmənistan və b.) qarşılıqlı əlaqələrdə rolu geniş təhlil edilir.

Monoqrafiyanın strukturunda 1920-1991-ci illəri əhatə edən tarixi dövrləşdirmə prinsipi nəzərə alınmış və ayrı-ayrı paraqraflar məhz həmin prinsiplər əsasında işlənmişdir.

Monoqrafiyanın məzmunundan aydın olur ki, əsər zəngin mənbələrə istinadlar əsasında yazılmışdır. Burada Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri geniş təhlil edilərək ümumiləşdirilmiş, problem baxımından dövrün mənzərəsi üzə çıxarılmışdır.

Monoqrafiyada tarixi mərhələlər üzrə elmi əlaqələrin müqayisəsi əməkdaşlığın, qardaşlıq və dostluq münasibətlərinin inkişaf dinamikasını ardıcıl izləməyə, cəmiyyətə verilən töhfələri dəyərləndirməyə və gələcək perspektivlərə dair fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə imkanlar yaradır.

Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələrinə həsr edilmiş bu əsər həm nəzəri, həm də praktik baxımdan əhəmiyyətlidir. Bu monoqrafik tədqiqat tədris resursu kimi də tətbiq edilə bilər.

Qeyd edək ki, türk xalqlarının tarixinin tədrisi məsələləri də günümüzün ən aktual məsələlərindəndir. Elm xadimlərinin, o cümlədən qardaş respublikalardan akademik Darxan Kuandıkulı Kıdıralı, akademik Xaydarbek Nazirbekoviç Bababekov, akademik Qaybulla Bolliyeviç Babayarın və başqalarının bu istiqamətdə xidmətləri də təqdirəlayiqdir.

Bu gün Azərbaycan ali məktəblərinin sosial-humanitar yönümlü fakültələrində, ümumtəhsil məktəblərində türk xalqlarının tarixi, o cümlədən ortaq türk tarixi öyrədilir. Ümumtəhsil məktəblərinin 8-ci siniflərində "Ortaq türk tarixi", ali məktəblərdə isə "Türk xalqları və dövlətlərinin tarixi", "Osmanlı tarixi" adlı fənlər tədris edilir. Eyni zamanda Azərbaycan tarixi və dünya tarixinin tədrisində türk xalqlarının inteqrativ tədrisinə xüsusi diqqət yetirilir. Bu baxımdan ölkəmizdə şagirdlərin, tələbələrin türk xalqlarının tarix və mədəniyyətini dərindən öyrənmələri üçün imkanlar genişdir.

Ümumiyyətlə, türkün tarixinə, mədəniyyətinə dair yazılmış obyektiv tədqiqat əsərlərinin hər biri dəyərli və qiymətlidir. Bu əsərlər, eyni zamanda təlim prosesində fənlərin məzmun imkanlarından məqsədəuyğun, sistemli istifadə türk milli kimliyinin daha dərindən dərk edilməsinə, gənclərdə tarixi keçmişimizə hörmət və məhəbbət hissinin formalaşmasında böyük rol oynayır. Ona görə də xalqlarımızı birləşdirən, qovuşduran və qardaşlıq əlaqələrini, birlik və bərabərliyimizi möhkəmləndirən ortaq türk tarixinin tədqiqi və tədrisi məsələlərinin daim diqqətdə saxlanılması, ona xüsusi əhəmiyyət verilməsi vacibdir.

References

1. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 2005, 392 s.
2. Bünyadov Z.M. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər). Bakı: Şərq-Qərb, 2007, 312 s.
3. Ələkbərli Ə.B. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri (1920-1991). Bakı: BİROL GROUP MMC, 2024, 408s.,
4. Əmrah M.Mərkəzi Asiyanın Türk respublikaları müharibə illərində (1941-1945-ci illər). Bakı: Mütərcim, 2015, 272 s.
5. Kıdıralı D.K., Babayar Q.B. (Darxan Kıdıralı, Qaybulla Babayar). Ortaq türk tarixi. Ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün dərs vəsaiti. Bakı: Təhsil,160 s.
6. Qeybullayev Q. Ə.Azərbaycan türklərinin təşəkkül tarixindən. Bakı: Azərnəşr, 1994, 248 s.
7. Muxtarova Ə.. Türk xalqlarının tarixi (qədim dövlər və orta əsrlər). Bakı, 2013. – 446s.
8. Mustafayev Ş.M. Səlcuqilərdən Osmanlılara: XI–XV əsrlərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: "Elm" nəşriyyatı, 2011
9. Nəcəfli T. Səfəvi-Osmanlı münasibətləri. Bakı: "Turxan NPB", 2014, 516 s.
10. Faruk Sümer. Safevi devletinin kuruluşu və gelişiminde Anadolu türklerinin rolu. Ankara: "Güven matbaası", 1976, 265 s.
11. Буниятов З.М. Выдающиеся деятели Узбекистана в сочинении Ибн-ал-Фувати. Журнал « Гулистон», 1980, №10 (на узб.яз.).
12. Буниятов З.М. Государство Хорезмшахов- Ануштегинидов: 1097-1231. М., Наука, 1986, 248 с.
13. Mahmudov Y.M. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами (II половина XV – начало XVII века). Баку: Издательство Бакинского университета, 1991.